**UOT 902**
**https://doi.org/10.59849/2710-0820.2024.1.200**

**Lola Hüseynova**
*AMEA Arxeologiya və Antropologiya İnstitutu, elmi işçi*
*lola.l1987.ekber@mail.ru*
*ORCİD: https://orcig.org/ 0000-0001-7700-5422*

# ÇOVDAR ƏRAZİSİNDƏ ARXEOLOJİ ABİDƏLƏRİN ÖYRƏNİLMƏ TARİXİ (I MƏRHƏLƏSİ, 1903-1921-Cİ İLLƏR)

***Açar sözlər:*** *Çovdar, Xocalı-Gədəbəy mədəniyyəti, arxeoloji qazıntılar, kurqan, daş qutu qəbir*

## Giriş

Daşkəsənin Çovdar kəndi 1733 m hündürlükdə, Çovdar dağının şimal yamacında, 40°36′49″ N.- 46°06′31″ E coğrafi koordinatlarda yerləşir (xəritə 1). Kəndin adı 1727-ci ildə Osmanlılar tərəfindən tərtib edilmiş “Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri”ndə Gəncə qəzasının Gəncəbasar nahiyəsinə tabe olan bir kənd kimi çəkilir. Coğrafi ərazi Yenicə adlı kəndin yaxınlığında lokalizə edilir (4, s. 66). Gəncənin 4 avqust 1732-ci il tarixli təhrir dəftərində də *“Timan Hüseyn vələdı Əhməd, Ərzurum Karyeyi Çovdar tabeyi Gəncə”*(7, s. 320) qeyd olunmaqla Çovdar kəndi bir daha xatırlanır. Kəndin adının etimalogiyası ilə bağlı müxtəlif yanaşmalar var. Bunlardan biri onun adını eyniadlı dağdan götürməsidir. Əlavə edək ki, dağın adının da eyniadlı bitkidən götürülməsi kimi yanaşmalar var ( 3, s. 201).

Məsələn eyniadlı digər coğrafi bölgəyə Kəlbəcər rayonu ərazisində rast gəlirik. Belə ki, burada Tərtər çayının bir qolu kimi bilinən Çovdar çayı və onun sahilində yerləşən Çovdar kəndi var. Kənd adını çaydan götürmüşdür (3, s. 142). Bəzi tədqiqatçılar Çovdar dağının adını burada yetişən çovdar bitkisinin çoxluğu ilə əlaqələndirib. Çovdar bitkisinin ən qədim qalıqlarına neolit dövrü abidələrində rast gəlinsə də (12, s. 170) e.ə II –I minilliklərdə daha geniş ərazilərdə eləcə də Kiçik Qafqazda mənimsənilib. Kəlbəcərdə Çovdar adı ilə bağlı araşdırmalarda bitki faktına rast gəlinmir. Çovdar adının etimologiyası ilə bağlı digər mülahizələrdən biri onun “davar alverçisi” mənasını verən “çovdar” sözündən götürülməsidir (3, s. 200). Ərazinin Çovdar adlanması da burada maldarlıq və heyvandarlığın inkişafı ilə bağlı ola bilər. Alimlərin bəziləri məsələyə başqa bir aspektdən yanaşıb. Türk tarixçilərindən Faruk Sümer qeyd edib ki, bu oronim səlcuk-oğuz tayfalarının adı ilə bağlıdır və çaudar/çovuldar/çavundur kimi tayfalarla əlaqəlidir. O, çovdarları çavundurlarla eyniləşdirir və onları oğuz tayfası kimi qəbul edir. Onu da vurğulayaq ki, çaundarlar elmi ədəbiyyatlarda da türk tayfaları kimi qeydə alınıb (2, s. 371). Faruk Sümer sadəcə Anadoluda XVI əsrdə bu adda 21 yer adının qeydə alındığını yazmışdır. Nəzərə alaq ki, Çavdarlar Anadoluya getmək üçün Azərbaycandan keçiblər (11, s. 142). Heç təsadüfi deyil ki, Zəngilanda Oxçuçayın sahilində Çaundar mahalı olub və Araza tökülən Oxçuçayın keçmiş adı da Çaundurçay adlandırılmışdır (8, s. 42). Bundan əlavə İrəvan əyalətinin 1727-ci ildə tərtib edilmiş icmal dəftərində Zar-Zəbil nahiyəsinə tabe olan Çavdar kəndinin, Çavdarlar qışlağının adı qeyd olunur (10, s. 143-144).

**ÇOVDARDA ARXEOLOJİ QAZINTILARIN BAŞLANMASINI ŞƏRTLƏNDİRƏN PROSSESLƏR:** Çovdar və bilavasitə Azərbaycan ərazisindəki digər abidələrin “arxeoloji tədqiqat” sənədlərində yer alması prosesi Rusiyanın işğalı ilə başlanılıb. Bu fikrin memarı isə I Pyotr hesab edilir. Daha sonra II Yekaterina Rusiya siyasətinin cənub istiqamətində “Yunan layihəsi”ni həyata keçirməyə çalışıb. Bununla, “Bizans mirası” uğrunda mübarizənin orbiti Qafqaza çəkilib (20, s. 922). Qafqazın arxeoloji abidələri haqqında ilk məlumatlar XVIII əsrin sonu - XIX əsrin birinci yarısında bölgəyə səfər etmiş səyyahlar tərəfindən verilib. Bundan sonra Qafqazın Rusiyaya inteqrasiyası, abidələrinin tədqiqi və bərpası ilə bağlı “mədəni tədbirlər” başlanılıb. Bütün səylər

"xristianlıq" adı altında bölgənin tarixini özününküləşdirməkdən ibarət idi. Bundan əlavə tapılan materiallara pul ödənilməsi də həmin dövrdə ərazidəki abidələrin dağılmasına kütləvi şəkildə yol açıb. Memarlıq və arxeoloji abidələrin ilk təsvirləri isə XIX əsrdə rus ordusunun zabitləri, hərbi topoqraflar və Qafqazda xidmət edən səyyahlar tərəfindən hazırlanıb. Onu da qeyd edək ki, bölgənin tarixinin öyrənilməsində avropalılarla Rusiya İmperiyasının maraqları toqquşurdu. Əvvəllər müəyyən sistemsizlik çərçivəsində axtarışlar aparılsa da sonradan Rusiya imperiyasının işğalı altında olan digər ərazilər kimi Azərbaycanda da milliyətindən asılı olmayaraq qazıntı aparan hər kəs müəyyən qurumların icazəsi ilə fəaliyyət göstərə bilərdilər. Onlar əsasən İmperator Arxeologiya Komissiyasının razılığı ilə müxtəlif ərazilərdə qazıntı işləri aparıblar. Qurum 1859-cu il fevralın 2-də qraf S.Q.Stroqanovun təklifi ilə Qədim Əşyaların Tədqiqi Komissiyası əsasında yaradılıb (20, s 926). 1889-cu ildən etibarən komissiya "açıq vərəqlər"lə - dövlət, şəhər və kəndli torpaqlarında qazıntı işlərinə icazə verən yeganə quruma çevrilib. Komissiya həm də abidələrin mühafizəsi və bərpası ilə də məşğul olub. Komissiyanın vəzifələrinə "bir vaxtlar indi Rusiyanın işğal etdiyi məkanda yaşamış xalqların milli tarixi və həyatı ilə bağlı qədim əşyaların axtarışı;antik dövr abidələri haqqında məlumatların toplanması; aşkar edilmiş abidələrin elmi qiymətləndirilməsi" daxil idi. XIX əsrin son rübündə təşkil olunan Tiflis qurultaylarının yekun iclaslarında Qafqaz arxeologiyasının öyrənilməsi ilə bağlı müxtəlif fikirlər söylənildi. Məsələn L.N. Maikov açıq şəkildə bildirirdi ki, "Qafqaz mədəniyyət mərkəzlərindən uzaqda yerləşən bir yerdir" (20, s.661-782). Avropanın ibtidai mədəniyyətlər üzrə mütəxəssisi R.Virxov hesab edirdi ki, "Qafqazda tunc dövrü mədəniyyətlərinin yaranması, inkişafı və ümumilikdə regionun inkişafı üçün heç bir ilkin şərtlər yoxdur. Buradakı bütün yeniliklər Şərqin təsirindən yaranıb" (20, s. 936). Bəzi tədqiqatçılar isə bunun əksinə olaraq qeyd edir ki, "qədim zamanlarda Qafqaz, Qərbi Asiya sivilizasiyaları ilə sıx bağlı olan canlı mədəniyyət mərkəzi olub və onunla eyni mədəni həyatı yaşayır" (14). XIX əsrin sonlarında Taliş bölgəsində geniş tədqiqatlar aparmış (5) Alaverdi mədənlərinin mühəndisi Jak de Morqan da Qafqazda tunc dövrünün əhəmiyyətsizliyi barədə fikirlərin əksinə çıxış edib (20, s. 937). Bütün bu təzadlı fikirlərə və XX əsrin əvvəllərində Azərbaycanın müxtəlif ərazilərində Rusiya İmperisyası tərəfindən təşkil olunmuş milli qırğın siyasətinə baxmayaraq arxeoloji qazıntı işləri davam etməkdə idi.

**ÇOVDAR ƏRAZİSİNDƏ ARXEOLOJİ QAZINTILAR VƏ ƏLDƏ OLUNAN MƏLUMATLAR:** İndiki Azərbaycan Respublikasının sərhədləri çərçivəsində İmperator Arxeoloji Komissiyasının apardığı qazıntılar XIX əsrin sonlarına təsadüf edir. Həmin dövrdə E.A.Resler, A.A.İvanovski, V.A.Skinder, Q.O.Rozendorf, V.Belk, J.Morqan, F.Bayern, Y.Hummel və s kimi şəxslər arxeoloji qazıntı işləri aparıblar. Daşkəsən rayonu haqqında ilk məlumatlar onun zəngin metal yataqları ilə birgə əldə olunub və bu tədqiqatçılardan bir çoxu Daşkəsənin Çovdar ərazisində olub və orada müxtəlif həcmli çöl tədqiqat işləri aparıblar.

**Emil Resler:** İmperator Arxeoloji Komissiyasının razılığı ilə Yelizavetpol quberniyasına ezam edilən şəxslərdən biri Alman dili müəllimi E.A.Reslerdir. Arxeoloji ədəbiyyatlarda onun 1901 (18, s. 7), 1903 (6, s. 86) və ya 1904-cü illərdə (6, s. 76) Çovdar ərazində arxeoloji qazıntı aparması haqqında məlumatlara rast gəlinir. İstinad kimi İAK VƏ MAO-nın xəbərləri, hesabatları və bununla bağlı nəşrləri göstərilib (21 və 22). E.A.Resler Gəncə- Qazax bölgəsi və Qarabağ ərazisində uzun müddət qazıntı işləri aparıb və qısa hesabatlar yazıb. Ancaq onun Çovdar ərazisində apardığı çöl tədqiqat işlərinin təfərrüatlarına istinad kimi göstərilən əsərlərin heç birində rast gəlinmir. Belə ki, Resler 1901-ci ildə Bayanda, Yelizavetpol quberniyasında, Seyidkənd, Aşağı Daşkəsən, Zurnabad, Balçılı kurqanlarında qazıntı aparıb (21). O, 1902-ci ildə əvvəlcə Şəkinin Böyük Dəhnə, sonra isə Yelizavetpol quberniyasında, Zurnabad kəndi yaxınlığında tədqiqatları davam etdirib. Böyük Dəhnədə 11, Zurnabad 18 qəbir abidəsi qazaraq tədqiqata cəlb edib (24, s. 102-110). Araşdırmalarının davamına 1903-cu ildə İrəvan quberniyasında (26, s. 98-99) və Şəmkir ərazisində kurqan qazıntısında (25, s. 86) rast gəlinir. E.A.Reslerin bu qazıntısının təfərrüatları arxeoloji komissiyanın 1906-ci il buraxılışın-

da nəşr olunduğundan 1907-ci il buraxılışında məlumat xarakterli qısa xülasə yazılıb. Burada qeyd olunur ki, 1904-cu ildə Tiflisdə iğtişaşlar zamanı baş verən hadisələr səbəbi ilə E.A.Resler elmi araşdırma aparmaq imkanını itirmişdir. Bu məlumatın əksinə olaraqİdeal Nərimanovonun 1904-cü ildə Çovdarda qazıntı aparmasını və “buradakı qəbirlərdə bütöv skeletə rast gəlməməsini,ancaq heyvan qalıqlarının tam olmasını” vurğulayıb (6, s. 76). Müəllifin E.A.Resler haqqında qeyd etdiyi cümlənin eyni məzmununa A.A.İvanovskinin tədqiqatlarında da rast gəlinir. O, qeyd edir ki,”E.A.Resler Yelizavetpol quberniyasında tədqiqata cəlb etdiyi bir çox daş qutulardan skelet aşkarlamayıb” (17, s. 166), ancaq bunun məhz Çovdar qəbirləri olması fikri qeyd olunmayıb. Nəticədə belə ehtimal olunur ki, E.A.Resler ya Çovdar ərazisində qazıntılar aparıb, ancaq hesabat nəşr olunmayıb ya da ikinci ehtimal, o, ümumiyyətlə Çovdar kəndi ərazisində qazıntı aparmayıb. E.A.Reslerin 1901-ci ildə Yelizavetpol quberniyasında apardığı arxeoloji qazıntıların nəticələri ilə bağlı hesabatların birində onun iş və yaşayış yeri ilə əlaqədar üzləşdiyi çətinliklər səbəbindən qazıntılar haqqında tam hesabat verə bilmədiyini , hətta əldə olunan materialların fotolarının təqdim olunmaması qeyd olunmuşdur (23, s 92). Sonuncu gəldiyimiz fikrin mənbəyi isə bu günə kimi istinad göstərilmiş əsərlərdə Çovdar haqqında məlumatların yer almamasıdır. E.A.Reslerin doğrudan da Çovdar tədqiqatçısı olunmasını ancaq Sankt -Peterburqda qorunmaqda olan İAK-ın arxiv sənədlərini əldə etdikdən və faktlara rast gəldikdən sonra təsdiq etmək mümkündür.

**Q.O.Rozendorf:**1903-cü ildə yuxarıda adı çəkilən komissiyadan mədən mühəndisi B.Şultsla birgə adı qeyri qanuni qazıntılarda yer alan, əczaçı Q.O.Rozendorf Gəncə şəhəri yaxınlığında, Çovdar, Mizrik və Quşçu kəndləri ərazisində qazıntı aparmaq üçün “açıq vərəq aldı” (16, s. 24). İlk öncə Q.O.Rozendorf əvvəllər E.A.Reslerin qazıntı apardığı ərazilərə yaxın bölgələrdə qazıntı işləri aparıb, kurqan və daş qutular qazıb. Daha sonra Daşkəsənin Quşçu və Çovdar kəndi ərazisindəki abidələr haqqında məlumat verib.

Q.O.Rozendorf Yelizavetpoldan 20 verst cənub-qərbdə yerləşən Çovdar kəndi yaxınlığındakı dağ silsiləsində üst əlamətləri görünən daş qutulardan ibarət qəbirstanlıq olduğunu qeyd edib. “Daş qutuların kənarları orta ölçülü, üzəri çox böyük daşlardan hazırlandığını yazıb. Əlavə olaraq üzərini örtmək üçün xırda daşlardan da istifadə olunub” (27, s. 102). Tədqiq etdiyi qəbirlər müxtəlif istiqamətlidir. Q.O.Rozendorf qazdığı daş qutu qəbirləri qadın və kişi qəbri olmaqla iki qrupa bölüb. Onun ilk tədqiq etdiyi daş qutu qəbir şərq-qərb istiqamətində, 2.45m. x 1.42m. x 1.12 m. ölçüsündə qurulub. Üzəri iki böyük daşdan ibarətdir. Kameranın şimal hissəsində insana məxsus kəllə sümüyü, cənubundan insana məxsus alt çənə sümüyü və 7 ədəd hissələr şəklində saxsı qab nümunələri, skeletin digər hissələri üzərində 40-a yaxın tunc bəzək əşyası və döşəmədən 1 m hündürlükdə iki saxsı qab aşkarlanıb. Bəzək əşyaları 5 ədəd şəbəkəli, dairəvi tunc asma, 2 ədəd tunc quş asma, ortasında ilan formasında spiral olan bir tunc sırğa; doqquz ədəd böyük tunc bilərzik, dəlikli iynə, 4 ədəd balta şəklində asma, 4-5 qatlı tunc üzük, 4 ədəd böyük düymə, 2 böyük, dairəvi tunc löhvə, tunc düymə və asmalar, 31 ədəd muncuqla təmsil olunur. Bu qəbrin qadın individuala məxsus olması fikrini qeyd edib (27, s. 102).

Digər qadın dəfninin izlənildiyi daş qutu qəbir şimal şərq-cənub qərb istiqamətində, 2,20 m. x 1,35 m. x 1,15 m. ölçüsündədir. Kameranın cənub divarında üst - üstə qoyulmuş daşların tökülməsindən sınmış 5 ədəd gil qab, qabların qarşısında insana məxsus kəllə sümüyü, alt çənə və insana məxsus pis qorunmuş digər sümük qalıqları aşkarlanıb və qadının bazu sümüyü üzərində 6 ədəd tunc bilərzik qeydə alınıb. Buradan tunc balta və iki sınmış saxsı qab da götürülüb (27, s. 103).

Q.O.Rozendorf kişi dəfni kimi qeydə aldığı birinci qəbir haqqında qeyd edib ki, bu qəbrin üst əlamətləri aydın seçildiyi üçün qarət edilib (27, s. 104). Q.O.Rozendorfun ehtimalına görə individual kameranın qərb divarında dəfn edilib. Kameranın cənub hissəsindən tunc kəmər toqqası, iki ədəd dolçaşəkilli asma, burulmuş asması olan şarşəkilli tunc bəzək əşyası, iki ədəd iri tunc bilərzik, 2 ədəd böyük ölçülü tunc düymə, üzərində quş təsvirləri olan tunc kasa, 9 ədəd tunc muncuq, 8 ədəd əqiq muncuq aşkarlanıb. Q.O.Rozendorfun Çovdarda tədqiq etdiyi

sonuncu kişi qəbrinin uzunluğu 2,40 m., eni 1.16 m., dərinliyi isə 1,14 m. olmaqla, şimaldan cənuba istiqamətlənmiş şəkildə hörülüb. Kameranın üzərinə 4 ədəd daş plitə qoyulub və onun da üstündə iki gil qab tapılıb. Kamerada insana məxsus kəllə sümüyü, alt çənə sümüyü, 2 bud sümüyü, 4 qabırğa və 2 boyun fəqərəsi müəyyənləşdirilib. Bundan əlavə qəbir avadanlığı 8 ədəd saxsı qab, tunc xəncər və 3 obsidian ox ucu ilə təmsil olunub (27, s. 105). Ümumilikdə, Çovdardan əldə olunan materiallar da daxil olmaqla 44 ədəd arxeoloji artefakt Q.O.Rozendorf tərəfindən Rusiya İmperiyasının Tarix muzeyinə təhvil verilib. Onu da qeyd edək ki, Q.O.Rozendorf üçü Çovdardan olmaqla 12 kəllə sümüyü üzərində aparmış olduğu araşdırmanın nəticəsində onların uzunsov baş quruluşuna aid olduqlarını qeyd edib.

**Vladimir Adamoviç Skinder:** Çovdar ərazisində qazıntılar aparmış növbəti şəxs Şamaxının 261-ci ehtiyat atıcı alayının giziri Vladimir Adamoviç Skinderdir. O, 1905-ci ildə Yelizavetpol quberniyasında qazıntı aparmaq məqsədilə İAK-dan "açıq vərəq" tələb edib (34, s. 713). Komissiya ondan qazıntıların aparılması ilə bağlı qaydalar siyahısını və özü haqqında və qazıntının məqsədini bildirən məlumat xarakterli sənəd tələb edib. Skinder cavab məktubunda kimya təhsili aldığını və xaricdə: Şimali Afrikada və indiki İran ərazisində arxeoloji qazıntılar aparmaq niyyətində olduğunu bildirib.Lakin rus-yapon müharibəsinin başlaması və onun orduya çağırılması buna mane olub (34, s. 713). Alayın olduğu Yelizavetpol quberniyasına gələndə, o, burada tarixdən əvvəlki insanın fəaliyyətinin izlərini aşkar etməsini və onları araşdırmaqda marağı olduğunu qeyd edib. Skinder, "açıq vərəqin" mümkün qədər tez göndərilməsini xahiş edərək bildirir ki, "sonra burada işçiləri əldə etmək bahalı və çətindir" (20, s. 981).V.A.Skinderin işi yekunlaşandan sonra komissiyaya hesabat verib və qeyd edib ki, ümumiyyətlə burada işləmək həm maddi, həm də digər məsələlərlə bağlı çox ağırdır. O,"İşlədiyim müddətdə iki dəfə quldurlar tərəfindən az qala öldürülürdüm" (20, s. 982) etirafını da edib. Tədqiqatlarına gəlincə isə "Rusiyada ilk dəfə olaraq ümumi tədqiqat metodunu tətbiq etdiyini" bildirib. Ancaq "ümumi tədqiqat metodu" deyəndə nəyi nəzərdə tutduğu məlum deyil.V.A.Skinder 1905-ci ildə Gəncədən Çovdara qədər ərazidə 7 kurqan qazıb. Onların bəziləri əvvəllər Q.O.Rozendorf tərəfindən tədqiq olunmuş torpaq qəbirlərdir (4 və 6 №li qəbirlər). O, Çovdar kəndi ərazisində qazdığı ilk qəbrin 7 böyük daşdan hörüldüyünü, daxilində saxsı fraqmentlərinə və üzərində dişlər qalmış insanın alt çənə sümüyünə rast gəldiyini qeyd edib (30, s. 19). Növbəti daş qutudan danışarkən o, burada böyük bir qəbirstanlıq olmasından xəbər verib. Bu qəbirdən tunc bilərzik, qara saxsı məmulatı və obsidian ox ucluğu götürülüb. Tədqiqatçı qeyd edir ki, bu qəbirlər onu sübut edir ki, Gəncədən Çovdara qədər ərazi insanların daimi yaşayış məskəni olub (30, s. 20). V.A.Skinder Çovdar kəndi ərazisində 2, ona yaxın ərazilərdə isə 7 daş qutunun tədqiqinə dair hesabatını və aşkarlanan artefaktların siyahısını İAK-a təqdim edib. Müəllif qəbir hədiyyələrinə əsasən daş qutu qəbirlərin qadın və kişi individuala məxsus olması mülahizələrini irəli sürüb. Məsələn,bir tərəfdən xəncər aşkarlanan 2 və 5№-li qəbirlərin kişiyə məxsus olduğunu, digər tərəfdən isə sırğa, üzük, bilərzik əldə olunmuş 3 və 8 №-li qəbirlərin qadınlara məxsus olduğunu qeyd edib. Əldə olunan qara keramikanı isə qaranlıq dünya ilə əlaqələndirib. Lakin sonrakı tədqiqatlar, xüsusilə, Göygöl rayonu ərazisindən tapılan qara keramika onun yuxarıdakı fikrini təsdiqləməyib və bu qabların əsasən təsərrüfatda daha çox istifadə olunması nəticəsinə gəlinib (19, s. 15). O, qablardakı ornamentlərin Assuriya ilə əlaqəli olduğunu qəbul etməmiş və bunun sadəcə formal xarakter daşıdığını qeyd etmişdir. Belə ki, Skinder əldə olunmuş materialları Yaxın Şərq və skiflərlə əlaqələndirib, hətta Xocalı Gədəbəy mədəniyyətinə aid edilən bu materialları hetlərin arxeoloji materialları ilə müqayisə edib. Bundan əlavə maraqlı məqamlardan biri odur ki, o, əldə etdiyi tunc əşyaların "elektrolitik analizləri"nin aparılması və komissiyadan analizlərin aparılmasına görə lazım olan platin qabların alınması üçün ona 80-100 rubl göndərilməsini xahiş edib (34, s. 714). İAK 1906-ci ildə Skinderə yenidən qazıntı aparmaq üçün icazə verəndə, ona analizlər üçün pul göndərməkdən imtina edib. Lakin o, sonradan hətta Yelizavetpol ərazisindən aşkarladığı bir çox metallar üzərində analizlər aparmış ( 30, 31, 32 ), onların mənşəyi ilə bağlı fikirlər irəli

sürmüşdür. V.A.Skinderdən sonra Çovdarda aparılan arxeoloji qazıntılar bir müddət dayanmışdır.

Bununla belə istər Rusiya İmperiyası tərkibində olan digər ölkələr, istərsə də Azərbaycan ərazisində aparılmış arxeoloji qazıntılar əsasında İAK tərəfindən böyük miqdarda materialın toplanması nəticəsində 1859-1918-ci illər ərzində üç müxtəlif adla 37, 46, 66 cilddə arxeoloji hesabatlar nəşr olunub. Komissiya 1919-cu ildə funksiyalarının yeni təşkil edilmiş Rusiya Maddi Mədəniyyət Tarixi Akademiyasına verilməsi ilə ləğv edilib. Moskva arxeoloji cəmiyyəti isə 1923-cü ildən sonra bir çox sahələrinin bağlanması nəticəsində genişmiqyaslı qazıntılar aparmaq səlahiyyətlərindən məhrum edilib. Bu hadisələrlə eyni dövrdə Qoşqarçay və Gəncəçay ərazisinə göndərilən növbəti ekspedisiya Ter Qukasovun rəhbərliyi altında baş tutub (15). O, Çovdarın qeyri milli tədqiqatçılarının siyahısında sonuncu şəxs idi. V.T.Qukasov AXC yaranmamışdan əvvəl, 1908-ci ildən müxtəlif ərazilərdə çöl tədqiqat işləri aparıb. Onun apardığı qazıntılar haqqında hesabatlara demək olar ki, rast gəlinmir. Ancaq onun MATM-nin arxivində qorunmaqda olan 8 səhifəlik əlyazmasından Gəncənin 35 verstliyində yerləşən Çovdarın 3 hissəsində qazıntılar aparması məlum olur (15). İlk olaraq kurqan (bu say etibarilə V.T.Qukasovun Daşkəsən ərazisindəki qazıntı apardığı dördüncü kurqandır) qazıb. Onun kamerasında aşkarlanan skeletin başı qərb istiqamətində qoyulub. Skeletin qəbir hədiyyələri baş bəzəyi, 2 ədəd sırğa, baş pilləkləri, muncuqlar, düymələr,bilərzik, orta ölçülü saxsı məmulatından ibarətdir (15, s. 5). İndividualın qadına məxsus olduğunu qeyd edən müəllif qəbir abidəsinin tunc dövrünə aid olması fikrini irəli sürüb. Növbəti qazıntı işlərini 1921-ci ilin iyun ayında "Qırmızı qaya" kurqanında aparıb. O, buradan bilərzik, muncuq, üzük, sinə bəzəkləri, sırğa və ox ucluğu tapıb (15, s. 6). Onun Daşkəsəndə apardığı qazıntı işlərinin nəticələrinə dair əldə etdiyi materiallar Milli Azərbaycan Tarixi Muzeyinin fondunda 1927-ci ildə yaradılmış inventar kitabında 67-ci saydan başlayaraq 28 inventar nömrəsi altında qeydə alınıb (1). Çovdar ərazisindəki kurqanlardan aşkarlanmış qəbir avadanlıqları bu kitabda № 67 (II kurqan), 71№ - 73№, 85№ - 95№ li inventar sırasında yer alıb. Bu materialların MATM-nin "Arxeoloji fond"unda saxlanması V.T.Qukasovun yox, onu ezamiyyəyə göndərən Dövlət Muzeyinin iradəsidir. Belə ki, yuxarıda adıları çəkilən şəxslər və o dövrdə Azərbaycan ərazisində tədqiqat aparan digər şəxslərin heç biri qazdıqları abidələri arxeoloji cəhətdən və tarixi aspektdən düzgün qiymətləndirə bilməyiblər və onların işlərində çatışmamazlıqlar çox idi. (19, s. 8). Bu şəxslərin əlyazma şəklində yazdığı hesabatların çoxu qorunmayıb. "Həvəskar alimlər" qazıntılardan əldə olunan nəticələr haqqında müfəssəl bir təhlil verməkdən çəkiniblər. V.A.Skinderin timsalında deyə bilərik ki, "Gəldikləri nəticələr"in bir çoxu faktlara əsaslanmadığından sonrakı dövrlərdə öz təsdiqini tapmayıb, materiallarla üst - üstə düşməməkdən başqa, həm də qərəzli idi. Məsələn V.A.Skinder qeyd edir ki, ən qədim tunc məmulatına akkad-şumerlərdə rast gəlirik. O zamanlar bütün xalqlar tunc və misi eyni adla isimləndiriblər, lakin Babilistanda misə "urudu", tunca "zabar" deyirdilər. Babillər protoarilər olub və onların da vətəni "bizim Ermənistandır" (29, s. 97). Mövcud olmayan bir ölkə haqqında "bizim" ifadəsini zikr edən Skinder hesab edir ki, Ermənistan Babil və Assuriyanın mis filizi mərkəzi, dünyanın zəngin mis rayonlarından biridir (29, s. 50). Hansı ki, o bu nəticəyə Azərbaycan ərazisindən əldə etdiyi metal məmulatları əsasında gəlib. Buna istinadən bildirib ki, Yelizavetpolda 67 mis yatağı var və ən vacibləri isə Gədəbəy mis yataqlarıdır (33, s. 93).

Onu da qeyd edək ki, bu zaman çərçivəsində əldə olunan bir çox artefaktların sonrakı taleyi məlum deyil. Məsələn E.A.Resler Moskva Antropoloji Cəmiyyətinin üzvü A.A.İvanovskinin qazıntılarını, onun qazma metodlarını tənqid edib. Bunun qarşılığında A.A.İvanovski də E.A.Reslerin qazıntı aparmaq hüququ olmadığını və əldə etdiyi materialları Virxovun əli ilə xaricə göndərməsini ittiham edib (20, s. 1034). O zaman hökümət tərəfindən A.A.İvanovskinin fikirləri dəstəklənib və E.A.Reslerə Virxovla işləmək qadağan olunub. Təbii ki, bu prossesin kökündə heç də materiallara hörmət, yerli xalqların tarixinə sayğı prinsipləri dayanmırdı. "Toqquşmalar" "Açıq Vərəqlər"in verilməsi uğrunda mübarizəsi deyil, həm də Qafqazın elmi tədqiqində öz prioritetini əldə saxlamaq istəyinə əsaslanıb. Qafqaz ərazisindən aşkarlanmış

60-a yaxın tunc kəmərin yalnız ikisinin Rusiyada, qalanlarının isə Berlində olduğu müəyyən edilib (20, s 1038). Ancaq sonra məlum olub ki, həm kəmərlər, həm də bir çox başqa tunc məmulatları Yelizavetpol quberniyasının Gədəbəy mis əritmə zavodunun elektrik montyoru və kimyaçısı V.Belk tərəfindən çıxarılaraq Berlinə göndərilib. Ümumilikdə, 1888-1890-cı illərdə Belk tərəfindən 300-dən çox daş qutu qazılıb, onlardan bir sıra bütöv tunc kəmərlər R.Virxova təhvil verilib. R.Virxov isə kəmərlərin xülasəsinə E.A.Reslerin məruzəsindən xəbərdar olduğu materialları daxil edib. Onu da qeyd edək ki, Azərbaycan ərazisindən əldə olunan arxeoloji materiallara bu qədər "həvəs" göstərən R.Virxov tarixi və müxtəlif dilləri bilməklə yanaşı həm də tibb işçisi idi. O, "Berlin Antropologiya, Etnologiya və Prehistorya Cəmiyyəti"nin (indiki versiya: BGAEU) həmtəsisçisi olmaqla bərabər 1856-ci ildə Berlində ilk dəfə Patoloji Anatomiya, Patofiziologiya kafedrasını yaradıb. O, əsasən Hind-Avropalıların Qafqaz ərazilərindən olduğu güman edilən bir dövrdə bütün fürsətləri dəyərləndirməyə çalışıb və Azərbaycan və ya Qafqaz ərazisindən daşınıb aparılan skelet nümunələrinin üzərində tədqiqat aparmağa çalışıb (35, s. 54).

Beləliklə, XIX əsrin sonu- XX əsrin əvvəllərində Çovdar ərazisində aparılan qazıntılar sistemsiz və dağıdıcı xarakterli olduğundan bir çox məsələlər qaranlıq qalır. Məsələn qəbirlərin istiqamətləri və giriş qapıları haqqında məlumat azlıq təşkil edir. Kamerada aşkarlanan skeletlərin vəziyyəti və istiqaməti ilə bağlı məlumatlar demək olar yoxdur. Bununla belə həm V.A.Skinder, həm Q.O.Rozenderf, həm də V.T.Qukasov daş qutu qəbirləri aşkarlanan materiallara görə qadın və kişi qəbirləri olmasını ehtimal ediblər. Arxeoloji artefaktlar isə Xocalı Gədəbəy mədəniyyətinin xarakterik xüsusiyyətlərini daşıyan bəzək nümunələri, geyim aksesuarları, müxtəlif təyinatlı saxsı məmulatı və silahlardan ibarətdir. Abidənin strukturu isə demək olar ki, hər üçünün tədqiqatında eyniformada müşahidə olunub.Yan tərəfləri və üzəri böyük çay daşlarından hörülən abidəni bərkitmək üçün xırda və orta ölçülü daşlardan da istifadə olunub. Dəfn prossesi kameranın döşəməsində həyata keçirilib və təkdəfnli mərasim icra olunub.

Çovdar ərazisində daş qutu qəbir və kurqan abidələrinin olması ilə bağlı sonrakı məlumata Nalçaqarov S.L –in Daşkəsənin Bayan kəndində apardığı arxeoloji qazıntıların hesabatlarında rast gəlirik. Lakin o, Çovdarda çöl tədqiqat işləri aparmayıb (13, s 232).

Nəhayət Azərbaycan tarixinin öyrənilməsində irəli sürülən konsepsiyaların mətni dəyişməyə başladı. Belə ki, 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti yarandı və mədəni quruculuqlara başlandı. 1919-cu ildə İstiqlal muzeyi, 1920-ci ildə isə muzeyin bazasında Azərbaycan Dövlət Muzeyi yaradılıb (9, s. 5). Onun tərkibində "Qədim Abidələrin Mühafizəsi Komissiyası" fəaliyyət göstərməyə başlayıb . Məqsəd isə maddi mədəniyyətimizin oğurlanması, xaricə daşınması, nəticədə böyük bir tarixin talanmasına son qoymaqdan ibarət idi. Bununla da Azərbaycan ərazisindəki qazıntılardan əldə olunan maddi mədəniyyət nümunələrini toplayan müəssisələr qismən milliləşdi. Dövlət Muzeyinin rəhbəri Davud bəy Şərifov Azərbaycan tarixinin öyrənilməsində müstəsna xidmətlərə malikdir. O, Çovdarda arxeoloji qazıntılar aparan ilk milli mütəxəssizdir (28).

## Ədəbiyyat


1. AMEA MATM arxeologiya fondunun materialları: inv. № 67/ 1422-97/ 1443.
2. Azərbaycan Sovet Ensiklopediyası / tər. ed C.B.Quliyev. -Bakı, Cild X. -1987, 608 s.
3. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti / tər. ed. Rübabə Əliyeva. Bakı: Şərq-Qərb, I cild. - 2007,- 299 s.
4. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri / red. Vasif Quliyev; ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi: Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı: Şuşa -2000, -576 s.
5. Morqan, J. D. Arxeoloji tədqiqatlar 1890 / J.D.Morqan. Paris-1896. Bakı-2023, -159 s
6. Nərimanov, İ. Gəncəçay rayonunun arxeoloji abidələri/ İ.Nərimanov. Bakı: "Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı". -1958, -143 s.
7. Osmanlı sənədlərində Qarabağ. Layihənin rəhbəri və ön sözün müəllifi Yaqub Mahmudov; Azərbaycan dilinə tərcüməedən və

çapa hazırlayan: Telli Qorxmaz. Bakı: Şərq-Qərb,- 2011, -616 s.
8. Sobulu, Ə. Rusiya İşğalları və Zəngilan (1930-1993) / Əli Sobulu. Bakı: "Avropa" nəşriyyatı -2013,- 575 s
9. Vəlixanlı, N. Tarixi mədəni irsimizi qoruyan məbəd // Azərbaycan Milli Tarixi Muzeyi – 2020, -Bakı:.- "Elm və təhsil", - 2020,- 504 s.
10. İlgaz, S. Osmanli Hâkimiyetinde Revan (Çukur Sa'ad) (XVI –XVIII Yüzyıllar arasında Sosyo-Ekonomik Tarih): / Doktora Tezi/- Erzurum, -2010, -321 s
11. Sümer, F. Oğuzlar (Türkmenler) tarihleri/ - boy teşkilatı - destanları. İkinci baskı. Ankara: -"Ankara Üniversitesi basımevi", - 1972, -574 s
12. Hillman, G. "On the Origins of Domestic rye: Secale Cereale: The Finds from Aceramic Can Hasan III in Turkey". Anatolian studies. Vol 28: -1978.157–174 c
13. Берцелиус- Налчагаров, С.Л. Раскопки в окрестностях сел. Баян Ганжинского уезда (лето 1925) // - Известия Азкомстариса, Баку: -1929. -вып. 4, тетрадь 2, - 325 с
14. Городцов, В. А. Бытовая археология: (Курс лекций, читанный в Московском археологическом институте). М.: Московский археологический институт, 1910, - 424 с
15. Гукасов, В.Т. Отчет о Раскопках в Ганджинском и Шамхорском уездах // AMEA MATM Elmi Arxivi, İnv № 36,- 1921 г. лист 8.
16. Длужневская, Г.В. Изучение археологических и архитектурных памятников в Закавказье и на Северном Кавказе // Археологические исследования в Европейской части России и на Кавказе в 1859-1919 годах (по документам Научного архива Института истории материальной культуры РАН). Длужневская. Г.В, - Санкт Петербург: -295 с
17. Ивановский, А.А. Материалы по Археологии Кавказа /-Москва: - 1911. Вып.VI, - 217 с
18. Кесаманлы, Г.П. Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района /Г.П. Кесаманлы, - Баку: Агридаг, -1999. -179 с.
19. Минкевич-Мустафаева, Н.В. Ходжалы-Кедабекская археологическая культура: Автореф/ на соискание учст.канд. ист. наук/- Баку, -1961, -338 с
20. Рысин, М.Б., Императорская Археологическая Комиссия исследование Памяников Кавказа и ПредКавказья // Приложение Императорская Археологическая Комиссия (1859-1917). Стеганцева. В.Я. - Санкт-Петербург: "Невская Типография", - 2019. Том 2. -1613 с
21. Реслер, Э.А. Археологическийислодевания Э.А.Реслера вы Елизаветпольной губ.вы 1901 году // Известия Императорской Археологической Коммиссии. - Санкт-Петербургь: - 1905. вып 16.- 123 с
22. Реслер, Э.А. Археологический ислодевания Э.А.Реслера вы Елизаветпольной губ.вы 1901 году // Известия императорской Археологической Коммиссии. - Санкт-Петербургь: 1904. вып 12. -128 с
23. Реслер, Э.А. Раскопки Елизаветпольская губерния // Отчеть Императорской Археологической Коммиссии за 1901. - Санкт-Петербургь: "Типографиа главнаго управления уделовь. Моховая", - 1903. № 40, -198 с
24. Реслер, Э.А. Раскопки Елизаветпольская губерния // Отчеть Императорской Археологической Коммиссии за 1902. - Санкт-Петербургь: "Типографиа главнаго управления уделовь. Моховая", № 40. -1904.-199 с
25. Реслер, Э.А. Раскопки Елизаветпольская губерния // Отчеть Императорской Археологической Коммиссии за 1903. - Санкт-Петербургь: "Типографиа главнаго управления уделовь. Моховая", - 1906. № 40, -374 с
26. Реслер, Э.А. Раскопки Елизаветпольская губерния // Отчеть Императорской Археологической Коммиссии за 1904 - Санкт-Петербургь: "Типографиа главнаго управления уделовь. Моховая",- 1907. № 40, -186 с
27. Розендорф, Г.О. Раскопки Елизаветпольская губерния // Отчетъ Императорской Археологической Коммиссии за

1903 годъ, -Санкт-Петербургъ: “Типографиа главнаго управления уделовь. Моховая”, -1906, -374 с.
28. Шарифов, Д.М. Раскопки близ с. Човдар Ганджинского уезда // - Известия Азкомстариса, Баку: -1929. -вып. 4, тетрадь 2, -325 с
29. Скиндерь, В.А. Бронза её природа и история с древнейших времени / В.А. Скиндерь. - Санкт-Петербургь: - 1908, -101 с
30. Скиндерь, В.А. Раскопки вы Чавдар // Опыть Археологической разведки Пятигорокь. Типо-литография А.П.Нагорова, -1906,- 32 с
31. Скиндерь, В.А Химико-физическое изследование древных бронз // Известия Кавказскаго Музея. Том III. -1907-08
32. Скиндерь, В.А Химическое изледование древнихъ бронзъ из раскопок в Елизаветпольской губерние / В.А . Скиндерь .-Санкт-петербургь: - № 12. -1908.
33. Скиндерь, В.А. Протоевропеець и протоариець / В.А. Скиндерь. С.Петербургь:- Издание А.Н.Заруднаго.- 1907,-100 с
34. Стеганцева, В.Я. Приложение Императорская Археологическая Комиссия (1859-1917) // Рысин. М.Б. “ИмператорскаяАрхеологическая Комиссия и исследование памятников Кавказа и ПредКавказья”. С. Петербургь:-2009,-Том 1.-1192 с
35. Virchow, R. Leben und Schaffen eines Reformators der Medizin // Gehalten im Rahmen der öffentlichen Vorträge der Universität Bießen am 21. November 1940. Vortrag

## Резюме

**Лола Гусейнова**

### История изучения археологических памятников Човдарской территории (этап 1, 1903-1921 гг.)

В статье говорится о начале и продолжении археологических раскопок, проводимых на территории села Човдар Дашкесана, также о комплексном изучении связанной с ними научной литературы. В ходе исследования стало известно, что Розендорф и Скиндер, командированные в Човдар Российской империей, проводили полевые исследования в основном занимались памятниками, имеющими характерные черты Ходжалинской Кедабекской культуры. По скрытым намерениям институтов ИАК, МАО и европейских неспециалистов внутри Российской империи история Азербайджана была перенесена за пределы страны для различных целей. В статье была предпринята попытка их прояснить. Кроме того, в отличие от авторов, которые до сегодняшнего дня рассказывают об исследованиях Эмилем Реслером, в данной исследовательской работе утверждается, что он вообще не проводил раскопок в Човдаре. Раскопки, проводившиеся Российской Империей в районе села Човдар, начались в 1903 году с Розендорфа и были продолжены Скиндером. исследования в Човдаре продолжили отечественные специалисты, сначала под руководством директора Государственного музея истории Азербайджана Давуд беком Шарифовом, а затем и другими.

***Ключевые слова:*** *Човдар, Ходжалы-Гедабекская культура, археологические раскопки, курган, каменныеящики*

**Summary**

**Lola Huseynova**

**History of the study of archaeological monuments in the territory of Chovdar (PHASE 1, 1903-1921)**

The article talks about the initiation and continuation of archaeological excavations in the territory of Chowdar village of Dashkasan, as well as a comprehensive study of scientific literature related to them. During the research, it became known that Rozendorf and Skinder, who were sent to Chovdar by the Russian Empire, conducted field research and mainly the monuments bearing the characteristic features of Khojaly Gadabey culture were involved in the research. In the invisible intentions of the HAC, MAC institutionswithin the Russian Empire and European non-specialists, the history lying in the lands of Azerbaijan was transported beyond the borders of the country for various purposes. In addition, unlike the authors who talk about Emil Resler's studies of Chovdar until today, in this research work it is claimed that he did not conduct excavations in Chovdar at all. Excavations conducted by the Russian Empire in the area of Chovdar village began in 1903 with Rozendorf and were continued by Skinder. After, research in Chovdar was continued by national experts, first under the leadership of the director of the State Museum, Davud Bey Sharifov

***Keywords:*** *Chovdar, Khojaly-Gadabey culture, archaeological excavations, kurgan, stone box grave*




**Xəritə 1.** Çovdar kəndi ərazisi



Qukasov V.T tərəfindən Çovdardan əldə olunmuş materiallar.Milli Azərbaycan tarixinin "Arxeologiya Elmi Fond "şöbəsinin materialları. (ilk dəfə nəşr olunur)



Rrozendorf. Q.O tərəfindən Çovdardan əldə olunmuş materiallar. İmperator Arxeoloji Komissiyanın hesabatlarından